# Tələbə musiqiçilərin yubiley töhfəsi



**Rəşid Behbudov adına Mahnı Teatrında Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci tələbələrinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə və kollecin 125 illiyinə həsr edilmiş maraqlı konsert  proqramı təqdim olunub.**



Konsert proqramı Elm və Təhsil Nazirliyi, Nəsimi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı, Azərbaycan Milli konservatoriyası nəzdində Musiqi Kollecinin birgə təşkilatçılığı ilə reallaşıb.

Əvvəlcə ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş videoçarx təqdim olunub. Ardınca Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov ulu öndərin dövlətçilik tariximizdəki misilsiz rolundan danışıb. Vurğulayıb ki, Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə siyasi sabitlik bərqərar oldu, vətəndaşlarımızın güzəranı xeyli yaxşılaşdı: “Respublikamız vətəndaş müharibəsinin astanasında idi. Məhz Heydər Əliyev ölkəmizi parçalanma təhlükəsindən xilas edərək dünya azərbaycanlılarının həmrəyliyini təmin etdi”.

Musiqi Kollecinin direktoru Nazim Kazımov çıxışında ulu öndərin mədəniyyət xadimlərinə, incəsənət adamlarına göstərdiyi xüsusi qayğıdan bəhs edib. Bildirib ki, Heydər Əliyevin mükəmməl bilik və bacarığı mədəniyyət sahəsində də dərin və silinməz izlər qoyub. Danılmaz həqiqətdir ki, onun hakimiyyəti illərində mədəniyyətimiz sürətlə inkişaf edib, milli ruhumuz özümüzə qayıdıb.

Daha sonra Yeni Azərbaycan Partiyasında fəal iştirakına görə kollecin müəllim və tələbələrinə mükafatlar təqdim edildi.

Konsert proqramı Musiqi kollecinin istedadlı tələbələrinin ifasında mahnı və musiqi kompozisiyaları ilə davam etdi. Kollecin xalq çalğı alətləri və nağaraçalanlar ansamblları, xor kollektivi, nəfəs və zərb alətləri orkestri və digər solistlərin ifasında yerli və xarici bəstəkarların mahnıları təqdim olundu.

Bakı Musiqi Kollecinin tələbəsi Amin Əsgərli və ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş Respublika müsabiqəsində fərqlənmiş İradə Məmmədovanın ifasında Ramiz Duyğunun “Karvan gedir öz yoluyla” və “Yurdum” şeirləri alqışlarla qarşılanıb.

**Fidan HÜQUQQIZI,**
**Rizvan FİKRƏTOĞLU,**
**Elşən AĞALAROV (foto),**
**“Xalq qəzeti”**

Xalq qəzeti.- 2023.- 28 may.- S.7.